**Bəhruz Tağızadə**

# GÜNƏŞİN KÖLGƏSİNDƏ

**(roman)**

qanun nəşriyyatı

**Bəhruz Tağızadə "Günəşin kölgəsində" (roman)**
Bakı, "Qanun Nəşriyyatı", 2024, 376 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 26.08.2024

| | |
|---|---|
| Bədii redaktor: | Mirmehdi Ağaoğlu |
| Redaktor: | Aysel Əlizadə |
| Rəssam: | Pəri Miniatür |
| Mətn dizaynı: | Sabina Aydın |
| Qapaq dizaynı: | Rafael Qasım |
| Texniki redaktor: | Xəyalə Əhmədova |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards–ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431–16–62; 431–38–18
Mobil: (+994 55) 212–42–37
e–mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-577-16-7

© Bəhruz Tağızadə
© Qanun Nəşriyyatı, 2024

*Bu əsər terrorizmlə beynəlxalq mübarizəyə həsr edilib.*

Uşaq evində böyüyən Selcan rəssamdır. Bir gün gözlərini açır ki, çəkdiyi karikaturaya görə ölkədə hamı ondan danışır. Bununla da qızın həyatı alt-üst olur. Ölkədə dövlət çevrilişi etmək istəyən qorxunc bir təşkilatın zindanına düşən Selcan həyatını qurtarmaq üçün düşmənindən hamilə qalmalıdır. Görəsən, onu uşaq evinə atmış valideynlərini qınayan rəssam qız bu seçim qarşısında hansı qərarı verəcək?

*Roman həqiqəti əks etdirmir. Tamamən müəllif təxəyyülünün məhsuludur.*

*Bu əsəri böyük Azərbaycan yazıçısı*
*Fərman Kərimzadəyə ithaf edirəm.*

*Doğulandan az sonra adımız, milliyyətimiz, dinimiz, məzhəbimizlə bağlı qərar verirlər və biz ömrümüzün qalan hissəsini seçmədiyimiz şeylərlə yaşamağa məhkum oluruq.*

***A.Şopenhauer***

*Kəssə hər kim tökülən qan izini,*
*Qurtaran dahi odur yer üzünü.*

***H.Cavid***

# 1
# Sərhəddə

Sərhəd naryadı üçün gecə ikidən səhər saat altıya qədər oyaq qalmaq məşəqqətdir. Birinci iki saatı birtəhər ötürmək olur, çətini yerdə qalan vaxta dözməkdir. Ayaq üstə dayandığın yerdə yatırsan, qalmışdı, hansısa daldalanacaqda çömbəlib oturmağın, meşədə ağaca söykənməyin, yaxud çəmənlik tapıb sərilməyin, o dəqiqə yuxu aparır. Belə vəziyyətdə yoxlamaya çıxan zastava rəisi tutsa, qanın getdi, cəzası ağır olacaq. Bu cür hadisələrdə komandirlər çox vaxt əsgərin silahını götürürlər ki, sonradan onu hərbi intizamı pozduğu üçün ciddi cəzalandırsınlar. Bəzi komandirlər isə lap cındırlıq edib əsgərin silahını böyük pul

qarşılığında özünə satırlar. Onun üçün də sərhəd naryadı zamanı yatan əsgərin birinci işi huri görmüş mömin kimi yuxuda da silahını bərk-bərk qucaqlamaqdır. Payızda, yaxud qışda yenə heç olmasa bilirsən, uzanmağa yer yoxdur, canın da çıxsa, ayaq üstə dözməyə məcbursan. Bacarırsan, yazın sonlarında, yayda döz. Yaşıl çəmənlər, quru otlar özləri səni səsləyir, "at bu xidmətin daşını, gəl bir çimir yat" deyir. Lənət şeytana, yuxunun göz çıxardığı bu anlarda quru torpaq da sirenlərə[1] dönüb adamı yolundan azdırır. Məlikməmməd olsa barmağını çərtib duz səpərdi.

O, nümunəvi sərhədçi kimi yaxşı bilirdi ki, xidmətdə qüsur edib öhdəliklərindən yayınmaqdansa, sərhədboyu xidməti ərazini gəzib pozucuların keçə biləcəkləri gizli keçidləri yoxlamaq yuxunu qovmağın ən yaxşı üsuludur. Başın da qarışır.

Hava soyuq və şaxtalı olsa da aydın idi, adda-budda ulduzlar görünürdü. Xidmətin bitməyinə hələ bir saat vardı. Ondan iki çağırış böyük naryad yoldaşı bir qədər aralıda ağaca söykənib çimir vururdu. Tapşırmışdı ki, gəzib yoxlanış aparsın, şübhəli nəyləsə qarşılaşsa, yaxud komandirlərdən yoxlamaya çıxan görsə, fit verib onu səsləsin.

O, naryad yoldaşından xeyli aralanıb sərhəd dirəyinin yaxınlığında dayandı. Saatına baxdı. Vaxt getmirdi. Əlini buşlatın cibinə atıb siqaretlə alışqan çıxardı, boynunu qaz kimi əyib dodaqlarında tutduğu siqareti yaxasından içəri saldı. O biri əlilə buşlatı bir qədər aralayıb alışqanı yandırdı. Ona görə belə elədi ki, alışqanın işığı yayılıb yeri bəlli etməsin. Siqaretlə bağlı bu ehtiyatlılıq sərhədçilərin yazılmamış qanunlarından idi. Sonra siqaretdən bir tüstü

[1] Yunan mifologiyasında su pəriləri. Onlar məlahətli səsləri ilə dənizçi–ləri özlərinə cəlb edir, sonra suda qərq edirlərmiş.

alıb alışqanı cibinə qoydu, siqareti ovcunun içində tutub əlini buşlatdan çölə çıxardı.

Ciyərlərinə yığılmış tüstünü kədərlə çölə üfürüb zülmət uzaqlara baxdı. Bura İranla sərhəddə dağlıq və sıldırım qayalıqlı ərazi idi. Meşə boyu uzanan sərhəd dirəkləri dağın sinəsinə qədər gəlir, burada sıldırım qayalıqların, yüksək dərələrin qarşısında təslim olurdu. Bundan sonra uca dağlar, keçilməz aşırımlar, sərt qayalar, dərin yarğanlar başlayırdı. Bu qayaları heç dağ keçiləri də aşa bilməzdi, ancaq narkotacirlər qayalıqların arasından, dolaylardan özlərinə yol tapır, hər il İrandan Azərbaycana minlərlə ton narkotik keçirirdilər. Bu iş onlara asan başa gəlmirdi, çox vaxt cəsur sərhədçilərlə toqquşur, qurban tərəf özləri olurdular.

Siqaretdən bir tüstü daha alıb qaranlığın içində xəyala dalmağa istinadgah axtardı. Əsgərlik xidmətini bitirməyinə hələ yarım ildən çox vaxt qalırdı. Suda olarkən dənizçilər ən çox quru haqqında düşündükləri kimi əsgərlər də hərbidə ən çox mülki həyat barədə düşünürlər. Xüsusən, müddətli hərbi qulluqçusansa, onda gecən-gündüzün yarımçıq qoyub gəldiyin həyatın həsrətini çəkməklə keçir. Əsgər yoldaşları arasında gecə-gündüz sevdikləri barədə düşünənlər, onların hicranı ilə alışıb-yananlar az deyildi. Bu qısacıq hərbi xidmət həyatında o, intizara dözə bilməyib fərarilik edən, özünə atan əsgərlər də görmüşdü. Onun yolunu isə yalnız Oğuzda qoyub gəldiyi anası ilə bacıları gözləyirdi. Sevdiyi yox idi. Məktəbi bitirəndən sonra yoxsul ailəsini tərk edib Bakıya universitetdə oxumağa gəlmişdi və bu dörd illik təhsil həyatında başı oxumağa elə qarışmışdı ki, heç bir qızla ciddi münasibət qura bilməmişdi, nə olmuşdusa da zövq üçün, əylənmək üçün olmuş-

du. İndi də növbətçi çıxan zamanlarda hərdən yadına əyləndiyi qızlardan biri düşür, o zaman qasığından həzin bir titrəmə keçir, sonra o titrəmə alovlu ehtirasa çevrilib onu yerində dinc dayanmağa qoymurdu.

Bu dəfə onu kədərə qərq edən qadınlar deyildi, gələcəyini, əsgərlikdən qayıdandan sonra nə işlə məşğul olacağını düşünürdü. İmkanlı bir qohumu da yox idi ki, harasa işə düzəltsin. Kitabxanaçılıq fakültəsini bitirməklə də hardasa yönlü bir iş tapacağı ağlına gəlmirdi. Ən ağlabatanı şəxsi biznesini qurmaq idi ki, ona da nə özünün, nə də ailəsinin imkanı çatırdı.

Bu vaxt qaranlıqdan pıçıltı eşidildi. Qeyri-ixtiyari siqareti yerə atıb, avtomatını qamarladı.

– Ey, sakit.

"Kimsən?" – avtomatı möhkəm – möhkəm sıxıb həyəcanla dilləndi.

"Məndə də silah var, özü də sənə tuşlanıb, artıq-əskik hərəkət eləsən, qarnını dolduracam".

Əlləri boşaldı, gözləri qaranlıqda bir cüt kəpənək kimi ora–bura vurnuxub səs gələn yeri axtardı.

Birdən yadına düşdü ki, siqaret ayağının altında közərir. Çəkmənin ucu ilə siqareti basıb söndürdü.

"Məni dinlə. Silahdan əlini çək və məni dinlə. Mal keçirmək istəsəydim səni rahatca o məsələ".

– Nə istəyirsən məndən?

Köhnə əsgər yoldaşları pozucuların arada sərhədçilərlə əlaqəyə çıxmaları barədə danışmışdılar, komandirlər də bununla bağlı bərk-bərk xəbərdarlıq etmişdilər. Üstəlik tapşırmışdılar ki, sərhəd pozucuları ilə davranış zamanı intizam qaydalarının tələbindən kənara çıxmasınlar, əks halda asanlıqla ovlana bilərlər. O da qaranlıqdan gələn sə-

sin qaçaq mal keçirmək istəyən sərhəd pozucusu olduğunu təxmin edirdi. Bunun üçün də onu zərərsizləşdirmək məqsədilə əlini tətikdən götürsə də gözlərini qaranlığın dərinliklərindən çəkmədi ki, axtarsın, tapdımı, ilk fürsətdə pozucunu zərərsizləşdirsin.

“Qorxma, gəlişim dostcadır. Sənə bir təklifim olacaq. Hə-hə, yox-yox. Heç nə edən deyiləm, mən də azərbaycanlıyam, öz elimizin oğluyam”, – səs bir qədər yaxından eşidilməyə başlamışdı.

“Təklif-məklif lazım deyil, çıx get!” – qətiyyətlə cavab verdi.

– Hələ səbrini bas, gör nə təklifdir.

O bilirdi ki, bəzən sərhədçiləri yoxlamaq üçün komandirlər özləri bu cür oyunlar qururlar, görsünlər, hansı əsgər qaçaqmalçılarla işləməyə meyillidir, hansılar deyil. Odur ki, naməlum səs sahibinə bu dəfə daha qətiyyətlə təpindi:

– Dedim, rədd ol, get, yoxsa bu dəqiqə heç nəyə baxmayacam!

Naməlum səs sahibi hələ də təmkinini pozmamışdı:

– Yaxşı, əsəbiləşmə. Dedim ki, əlini silaha aparsan güllə alnındadı. Nə bilirsən, bəlkə də tək deyiləm?

Həyəcanı artdı, pozucunun tək olmama ehtimalı heç ağlına gəlməmişdi. Bədənini soyuq tər bürüdü, tərslikdən naryad yoldaşı da yatıb qalmışdı, heyvərə oyanmaq bilmirdi, fit verib onu xəbərdar etsə, naməlum səsin sahibi başa düşəcəkdi.

– Sənə çox yaxşı təklifim var.

– Mənə heç nə lazım deyil.

“Özünü quru bəyliyə vurma”, – adam çox rahat danışırdı, elə bil səs adamdan yox, yaxınlıqda gizlədilmiş maqnitofondan çıxırdı.

Gözləri ilə qaranlığı nə qədər ələkdən keçirsə də səsin gəldiyi istiqaməti konkretləşdirə bilmirdi.

– Sənə təklifi edim, gedirəm, yaxşı pul qazanassan, kasıb adamsan.

– İstəmirəm.

– Ay yetim, yüz min dollar ciblərini deşir?

"Yüz min dollar" ifadəsini eşidəndə səksəndi, elə bildi ki, naməlum səs onunla zarafat edir, amma özünü itirmədi:

– Lap milyon da versən lazım deyil!

– "Ay yetim, özünü elə aparırsan, guya oliqarx balasısan, – səs kəskinləşdi, – kasıb uşaqsan da".

– Hardan bilirsən?

– Varlının balasının bu dağda nə iti azıb, voyenni biletini alıb, oturub evində. Sənin kimi kasıb uşaqlarıdır yağış-qar demədən, vətəni qoruyurlar, axırda da heç quru "sağ ol" da deyən olmur.

"Mənə heç nə lazım deyil, – öz cavabından özü də çaşdı, bilmədi, naməlum səsin təklifinin ona lazım olmadığını nəzərdə tutur, yoxsa vətəninin qədirbilməzliyini".

– Qulaq as, oğul, təklifim ciddidir. Narahat olma, bu danışdığımız ikimizin arasında qalacaq. Bir sən biləcəksən, bir də mən. Yəqin başa düşürsən ki, sən də bu barədə heç kəsə heç nə deməməlisən, çünki ondan sonra gərək naryada çıxmayasan. Koroçe, sənə növbəti naryadına kimi vaxt verirəm. Yenə gələcəm. Əgər 100 min dollar qazanmaq istəsən, deyərsən. Ondan sonra şərtləri danışarıq. Yox, istəməsən... – bir qədər pauza verdi, – hamı axmaq deyil ki, biri mütləq tapılacaq.

"Qoy mən axmaq olum!" – dərhal dilləndi, amma səs ona cavab vermədi. Elə gəldiyi kimi də qəfil qeyb oldu.